Aşağıdakı işlərdə aparılan müqayisənin doğru olub-olmadığını yoxlayın və ayrı-seçkiliyin mövcud olub-olmamasını müəyyənləşdirin

**1-ci Kazus**

Ərizəçi Məhkəmədə iddia edirdi ki, stajor hüquqşünas kimi görməli olduğu ödənişsiz işə görə onun 14-cü ilə Maddə ilə birgə götürülməklə 4-cü Maddəyə (köləliyin ləğvi) əsasən hüquqları pozulub. O iddia edirdi ki, şagird həkimlər və stomatoloqlar oxşar ödənişsiz işi görməli deyildi.

**2-ci Kazus**

Ərizəçilər iddia edirdilər ki, Dövlət Yunan Kilsəsinə məxsus monastırların əmlakının böyük hissəsini mənimsəyib, lakin digər monastırların torpaqlarını mənimsəməyib; bununla da onlara qarşı ayrı-seçkilik olunub.

**3-cü Kazus**

Mərakeş vətəndaşı Belçika ərazisində bir neçə cinayət əməli törətməkdə ittiham olunub. Nəticədə şəxs deportasiya edilib. Mərakeş vətəndaşı iddia edir ki, bu deportasiya qərarı ona qarşı ayrı-seçkiliyə səbəb olub. O, bu ayrı-seçkiliyin onun milliyyəti ilə bağlı olduğunu iddia edərək bildirib ki, Belçika vətəndaşlarının cinayət əməli törətmələri onların ölkədən deportasiya olunmasına səbəb olmur. Şəxs haqlıdırmı?

**4-cü Kazus**

İki bacı 31 il ərzində birgə yaşayıblar. Onlar mülkiyyətə birgə sahib olublar və hər biri mülkiyyətin özünə aid hissəsini vərəsəlik qaydasında digərinə miras qoyub. Onlar şikayət ediblər ki, mülkiyyətin dəyəri müəyyən olunmuş həddi aşdığına görə, bacılardan birinin vəfatı nəticəsində, digər bacı vərəsəlik vergisi ödəməlidir. Bacılar hesab ediblər ki, onların mülkiyyətdən istifadə hüquqlarına qarşı ayrı-seçkiliyə yol verilib və bunu onunla əsaslandırıblar ki, evli cütlüklər və ya vətəndaş nikahında yaşayan şəxslər vərəsəlik vergisindən azad ediliblər. Siz bu barədə nə düşünürsünüz?

*Hazırladı: İvana Roagna*